UOT 330:332.364 (479.24)

# SOSİAL SİYASƏT VƏ İQTİSADİ İNKİŞAF

səh. 67-86



**Musayev Akif Fərhad oğlu**

**İqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü**

AZ1073, Bakı ş. Landau 16.
akif.musayev@taxes.gov.az
akif.musayev@gmail.com



**Qarayev İmran Əliyar oğlu**

**İqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent,**

AZ1073, Bakı ş. Landau 16.
imran.garayev@taxes.gov.az
igarayev@hotmail.com

**Xülasə**

*Tədqiqatın məqsədi* – iqtisadi inkişafın müasir mərhələsində sosial siyasətin müxtəlif aspektlərinin təhlili vasitəsilə onun stimullaşdırıcı rolunun təhlili və davamlı inkişafa təsirinin araşdırılması.

*Tədqiqatın metodologiyası* – riyazi-iqtisadi modelləşdirmə, statistik təhlil, sistemli yanaşma, müqayisəli təhlil.

*Tədqiqatın nəticələri* – Azərbaycanda sosial siyasətin müxtəlif aspektləri araşdırılmış, və sosial-iqtisadi bərabərsizliklərin keçid modeli qurulmuşdur.

*Tədqiqatın məhdudiyyətləri* – sosial kapitalın qiymətləndirilməsi və onun kəmiyyət xarakteristikalarının müəyyənləşdirilməsi praktiki baxımdan çətin məsələ olduğundan keçid modelində iqtisadi bərabərsizliklərdən istifadə edilməsi.

*Tədqiqatın praktiki əhəmiyyəti* – iqtisadiyyatın inkişafının müasir mərhələsində sosial amillərin rolu və onun qiymətləndirilməsi.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* – sosial kapitalın iqtisadi inkişafdakı rolunun müəyyənləşdirilməsi və sosial-iqtisadi bərabərsizliklərin keçid modelinın qurulması.

**Açar sözlər:** *sosial siyasət, sosial kapital, demoqrafik keçid, sosial-iqtisadi bərabərsizliklər, korporativ sosial məsuliyyət*



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Bazar iqtisadiyyatı şəraitində dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin səmərəliliyi, cəmiyyətin mövcud sosial-iqtisadi strukturundan, onun keyfiyyət xarakteristikalarından əhəmiyyətli dərəcədə asılıdır. İnsan kapitalı səviyyəsi yüksək olan ölkələrdə sosial-iqtisadi islahatlar daha uğurla həyata keçirilir, vergidən yayınma meyilləri daha aşağı olur. İnsan fərdi və sosial varlıq olmaqla cəmiyyətin ayrılmaz bir tərkib hissəsidir. Məhz insan kapitalının səviyyəsinin yüksək olması səbəbinə görə iqtisadiyyatı ikinci Dünya müharibəsi illərində demək olar ki, məhv edilmiş Almaniya və Yaponiya çox qısa bir müddət ərzində iqtisadiyyatının əvvəlki vəziyyətini bərpa etməklə yüksək inkişaf templərinə nail oldular. Lakin heç bir müharibə görməmiş yalnız iqtisadi sistemi transformasiya olunmuş bir çox ölkələr (*o cümlədən, bəzi keçmiş Sovetlər Birliyinə daxil olan ölkələr*) iqtisadi inkişafın iyirmi il bundan əvvəlki vəziyyətinə belə çata bilmirlər.

İnsan bir tərəfdən iqtisadi islahatları həyata keçirən subyekt, digər tərəfdən isə həmin siyasətin hədəfidir. Məhz bu duallıq xüsusiyyəti, insan kapitalının fəaliyyət göstərdiyi sosial-institusional mühitin, cəmiyyətin mövcud formal və qeyri-formal institutlarının yaranması prinsiplərinin daha dərindən təhlil olunmasını tələb edir. İqtisadi ədəbiyyatda bu problemlər kifayət qədər təhlil edilmişdir [1, 2, 8, 9, 10, 11].

İqtisadi inkişafın sosial amilləri onun iqtisadi komponentlərindən ayrılmazdır. Bəzi iqtisadi nəzəriyyələrdə cəmiyyətin sosial problemləri iqtisadi problemlərindən ayrı şəkildə baxılır. Əvvəl iqtisadi problemlər həll edilməli, sonra sosial problemlərlə bağlı məsələlərə baxılmalıdır fikri nəinki səhv, hətta təhlükəlidir. Cəmiyyəti düşündürən sosial problemlər, mövcud sosial-iqtisadi bərabərsizliklər, əhalinin müxtəlif qrup və təbəqələri arasındakı əməkdaşlıq səviyyəsi, vətəndaş cəmiyyətinin formalaşması, partnyorluq prinsipinin real praktiki fəaliyyətdə həyata keçirilməsi davamlı iqtisadi inkişafın təmin edilməsinin əsas və həlledici amilləridir. Bütün bunları nəzərə alaraq sosial siyasət və ona təsir edən amillərə, demoqrafik problemlərə nəzər yetirək.

## 2. Cəmiyyət və onun strukturu

Cəmiyyət - insanların birgə yaşayışının vahid, tarixi və dayanıqlı bir formasıdır. Cəmiyyətin bütövlüyü və dayanıqlığı onun daxili strukturu arasındakı funksional asılılıqlarla müəyyən olunur. Tarixi inkişaf nəticəsində cəmiyyətdə daimi olaraq inkişaf prosesi baş verir. Bu proseslər iqtisadi, siyasi, sosial və digər amillərin təsiri nəticəsində dinamik xarakter daşımaqla müxtəlif təsirlərə malik olur. İqtisadi inkişaf nəticəsində əhalinin gəlirlərinin artması cəmiyyətin strukturunda iqtisadi parametrlərinə (*gəlirlərə, xərclərə, sosial transfertlərə və s.*) görə dəyişmələrə gətirib çıxarır. Bu isə öz növbəsində müxtəlif sosial-iqtisadi proseslərin baş verməsinə səbəb olur.

Belə ki, aztəminatlı ailələr orta və ya yüksək təminatlı qruplara keçir. Bunun nəticəsində sosial-iqtisadi bərabərsizliklər sahəsində yeni bir vəziyyət əmələ gəlir. Vergi siyasətində vergi dərəcələrində olan dəyişikliklər analoji qaydada əhalinin adambaşına düşən gəlirlərinə görə paylanmasındakı mövcud vəziyyəti dəyişdirir. Bu dəyişmələr əhalinin bütün qrup və təbəqələrinə təsir göstərdiyindən meydana gələn keçid proseslərinin qiymətləndirilməsi məsələsi qarşıya çıxır. Sosial-iqtisadi inkişaf əhalinin təhsil səviyyəsində, səhiyyə xidmətlərindən istifadə edilməsində, sosial transfertlərin paylanmasında yeni və daha əlverişli şərait yaradır. Demoqrafik proseslərdə olan təsirlər bilavasitə əhalinin sayının dinamikasında və onun yaş-cins strukturunda fərqlər əmələ gətirir ki, bu da bilavasitə cəmiyyətin demoqrafik parametrlərində olan struktur fərqlərin yaranmasına səbəb olur. Bu təsirlərin modelləşdirilməsinə gələcəkdə baxılacaqdır.

Cəmiyyət müxtəlif fərdlərdən ibarət olan bir sistem olmaqla, onun ümumi prinsiplərini özündə cəmləşdirir. Cəmiyyətin strukturu, bir tərəfdən onun vahid kimi təşkilati əlaqələrini müəyyənləşdirir, digər tərəfdən isə cəmiyyətin həyati fəaliyyətinin geniş təkrar istehsalını təmin edir. Cəmiyyətdə baş verən proseslərin elmi cəhətdən araşdırılmasının qarşısında duran məqsədlər bir-birindən fərqlidir. İqtisadi inkişaf baxımından hansı modelə üstünlük verilməsi cəmiyyətdə baş verən proseslərin səbəblərinin öyrənilməsini, cəmiyyət üzvlərinin maraqlarını, onların istehlak davranışının təhlilini, motivlərinin araşdırılmasını tələb edir. İctimai elmlər qarşısında duran əsas məsələlərdən biri də insanların davamlı olaraq üzləşdiyi problemləri yaradan səbəblərin aşkar edilməsi və onlara təsir göstərə biləcək mexanizmlərin qurulmasından ibarətdir. Məhz cəmiyyətin sosial-iqtisadi strukturunun və onun inkişaf dinamikasının düzgün müəyyənləşdirilməsi həyata keçirilən dövlət siyasətinin səmərəli olmasının əsas şərtlərindən biridir. Hər hansı bir ölkədə insanları düşündürən, onları narahat edən və həlli imperativ xarakter daşıyan problemlər cəmiyyətin struktur problemlərini müəyyənləşdirir.

Məsələ ondan ibarətdir ki, cəmiyyət müxtəlif iqtisadi gəlirlərə, fərqli sosial-iqtisadi motivlərə malik təbəqələrdən ibarətdir. Cəmiyyətin problemlərinə fərqli yanaşma əhalinin dayanıqlı xüsusiyyətlərə malik müxtəlif qrup və təbəqələrinin sosial-iqtisadi davranışının öyrənilməsini və təhlil edilməsini nəzərdə tutur. Əhalinin eyni bir oxşar yaşayış tərzinə və ictimai vəziyyətə malik təbəqələri sosial qruplar adlanır. Cəmiyyət müxtəlif sosial qruplardan ibarət olan bir sistemdir. Hər bir sosial qrupun öz maraqları, gəlirlərinin formalaşması xüsusiyyətləri, istehlak davranışları vardır. Bəzi hallarda müxtəlif sosial qruplar arasındakı maraqlar ziddiyyətli xarakter daşıyır. Sosial qruplar birlikdə əhalinin sosial strukturunu təşkil edir. Sosial qruplar iqtisadi, demoqrafik və digər göstəricilərə görə müxtəlif təbəqələrə bölünürlər. İqtisadi parametrlərinə görə aztəminatlı, orta təminatlı və yüksək təminatlı qruplara ayırmaq olar. Demoqrafik parametrlərə görə əhali çox uşaqlı, azuşaqlı və s. qruplara bölünür.

## 3. Sosial siyasət

Son zamanlar müasir iqtisadi nəzəriyyədə iqtisadi inkişaf proseslərinin əhalinin həyat səviyyəsini, onun maddi rifahını xarakterizə edən sosial parametrlər vasitəsilə ifadə edilməsi geniş yer almış və qəbul edilmişdir [8, 9]. Sosial parametrlər əhalinin ümumi həyat səviyyəsini xarakterizə edən inteqral göstəricilərə və müxtəlif sosial qrupların maraqlarını ifadə edən differensiallaşdırılmış göstəricilərə bölünür. Ümumi inteqral göstəricilər əhalinin orta həyat səviyyəsini göstərir və bu zaman müxtəlif sosial qruplar arasında olan fərqlər nəzərə alınmır. Praktika göstərir ki, dövlət tərəfindən həyata keçirilən iqtisadi tənzimləmə mexanizmləri bu problemlərə diferensiallaşdırılmış yəni müxtəlif sosial qrupların maraqları nəzərə alınmaqla tətbiq edilməlidir.

Sosial siyasət – geniş mənada əhalinin və onun müxtəlif qruplarının sosial vəziyyətinin saxlanılması və dəyişdirilməsi istiqamətində aparılan siyasətdir. Sosial siyasətin əsas məqsədi sosial vəziyyətə təsir göstərilməsindən ibarətdir.

Sosial vəziyyət – əhalinin və onun müxtəlif təbəqələrinin həyat fəaliyyətinin kompleks xarakteristikasıdır. Sosial qrupların və təbəqələrin həyat tərzi müxtəlif amillərin təsiri nəticəsində baş verir. Sosial vəziyyəti müəyyənləşdirən ictimai şərtlərə aşağıdakılar aiddir:

- Cəmiyyətin əsaslandığı ictimai-iqtisadi quruluş (*bazar iqtisadiyyatı, sosialist istehsal üsulu, inzibatı amirlik prinsipi və s.*);
- ➢ mülkiyyət münasibətləri;
- ➢ iqtisadi şərtlər;
- ➢ ekoloji təhlükəsizlik;
- ➢ sosial təhlükəsizlik və sosial müdafiə.

Sosial siyasətin mahiyyətinin dərk edilməsi sosial vəziyyətin parametrlərinin müəyyən edilməsi zərurətini meydana çıxarır. Sosial vəziyyətin parametrlərinə əhalinin həyat səviyyəsi, maddi rifah, həyat tərzi və həyat keyfiyyəti göstəricilərini aid etmək olar. Əhalinin həyat səviyyəsi göstəricilərinə əhalinin gəlirləri, sosial transfertlər, sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər və digərləri aiddir. Əhalinin həyat tərzi və həyat keyfiyyəti göstəriciləri yalnız kəmiyyət xarakteristikaları olan göstəricilərlə məhdudlaşmır. Əhalinin həyat keyfiyyəti sosial xidmətlərlə təmin edilməsi, əhalinin təhsil səviyyəsi, səhiyyə xidmətləri ilə əhatə olunması dərəcəsi ilə xarakterizə olunur. Əhalinin həyat tərzi onun sosial-istehlak davranışı, insanın xoşbəxtliyi, ailənin rolu və digər kəmiyyət xarakteristikaları dəqiq müəyyən edilə bilməyən göstəricilərlə ifadə olunur. Sosial siyasətin əsas tərkib hissələrindən biri də demoqrafik siyasətdir. Demoqrafik problemlər bilavasitə əmək bazarına təsir göstərir. Doğum səviyyəsinin aşağı düşməsi və əhalinin yaşlaşması, əmək bazarında yaranan problemlər büdcə-vergi siyasətində dəyişikliklərin meydana gəlməsinə səbəb olur.

## 4. Sosial siyasətin subyektləri

Müxtəlif insanlar, sosial qruplar eyni bir cəmiyyətdə yaşayır və fəaliyyət göstərirlər. Bu sosial qruplar cəmiyyət daxilində bir-biri ilə qarşılıqlı münasibətə girirlər. Bu cür münasibətlərin formaları olduqca müxtəlifdir. Sosial partnyorluq, kompromislər, konfliktlər, vətəndaş birliyi, tətillər, müharibələr və s. buna olan nümunələrdir. Digər siyasətlərdə olduğu kimi sosial siyasətdə də müxtəlif qruplar üzrə olan ictimai münasibətlər əsas rol oynadığından sosial siyasəti həyata keçirən tərəf müəyyənləşdirilməlidir. Dünyanın aparıcı iqtisadçılarının qəbul etdiyi fikirlərdən biri də ondan ibarətdir ki, bazar iqtisadiyyatının sosial mexanizmləri demək olar ki, yox dərəcəsindədir. Bu isə sosial siyasətin həyata keçirilməsində dövlətin rolunun əsas götürülməsini tələb edir [8, 9].

Sosial qruplar cəmiyyətdə tutduğu mövqeyindən asılı olaraq aktiv və ya passiv rol oynaya bilər. Məsələn, vergi siyasətinin hansı istiqamətdə aparılmasında dövlət, sahibkarlar və digər strukturlarda çalışan əhali aktiv, əmək qabiliyyətli yaşdan yuxarı olan əhali passiv rol oynayır.

Sosial siyasətin subyektləri - real şəkildə mövcud sosial qruplar və onların mənafeyini qoruyan təşkilatlar və institutlardır. Sosial qrupların özləri ilə yanaşı onların yaratdıqları təşkilatlar da sosial siyasətin subyektlərinə aid edilir. Məsələn, yazıçılar, neftçilər, alimlər müxtəlif sosial qruplardır. Yazıçılar İttifaqı, Elmlər Akademiyası, Neftçilərin Həmkarlar İttifaqı həmin sosial qrupların mənafelərini qoruyan təşkilatlardır. Demokratik idarəetmənin əsas prinsiplərindən biri də vətəndaş cəmiyyətinin formalaşmasından ibarətdir.

Vətəndaş cəmiyyəti - ictimai quruluşun real çoxsubyektli elə bir formasıdır ki, cəmiyyətin iqtisadi, sosial, mədəni və siyasi iştirakçılarını özündə cəmləşdirir. Vətəndaş cəmiyyətində bir-birindən asılı olmayan çoxlu subyektlər mövcuddur və qərarvermə prosesində onların iştirakı təmin edilir. Vətəndaş cəmiyyətində tərəflər arasındakı münasibətlər qanunvericiliklə təmin olunur. Hər bir siyasətin (o cümlədən vergi siyasətinin) mahiyyətinin dərk edilməsi və onun səmərəliliyinin təmin edilməsi üçün həmin siyasətdə maraqlı olan və bilavasitə iştirak edən sosial qruplar arasında olan münasibətlər müxtəlif aspektlər üzrə araşdırılmalıdır:

- sosial siyasətdə iştirak edən aktiv və passiv tərəflər (*subyektlər*) müəyyənləşdirilməlidir;
- təsir dairəsi daha yüksək olan subyektlər fərqləndirilməlidir;
- subyektlərin sosial vəziyyətinin parametrləri təyin edilməlidir;
- sosial vəziyyətin dayanıqlı tendensiyaları və sosial inkişaf vektoru;
- cəmiyyətin sosial stabilliyi və ona təsir edən amillər.

Bütün bu amillər həyata keçirilən sosial siyasətə eyni dərəcədə təsir göstərmir. Hansı amillərin daha çox təsir etməsinin düzgün müəyyənləşdirilməsi sosial siyasətin effektivliyini əhəmiyyətli dərəcədə artırır.

## 5. Sosial kapital

Son zamanlar iqtisadi və sosial elmlərdə sosial kapitala həsr edilmiş elmi tədqiqatların sayı artmışdır [7, 8, 9, 10, 11]. Sosial kapitalın elmi ictimaiyyət tərəfindən qəbul edilmiş vahid bir tərifi yoxdur. "Sosial kapital" dedikdə, cəmiyyətin müxtəlif təbəqələri arasındakı əməkdaşlığın səviyyəsinin iqtisadi və ictimai faydalılığa təsiri dərəcəsi başa düşülür. Sosial kapital cəmiyyətin müxtəlif qruplarını birləşdirən bir mühitdir. Bu mühiti daha əhəmiyyətli olan ölkələr bir qayda olaraq iqtisadi inkişafda daha yüksək nəticələrə malik olurlar. Sosial kapital fiziki kapital ilə insani kapitalının sintezini gücləndirməklə iqtisadi inkişafın davamlı olmasına təsir göstərir. Bu termin elmi ədəbiyyatda ilk dəfə 1916-cı ildə L.Hanifan tərəfindən icmalardakı əməkdaşlığın səviyyəsinin qiymətləndirilməsi məqsədi ilə istifadə edilmişdir. O, qeyd edirdi ki, əgər hər hansı bir icmada bir ailə öz qonşusu ilə yaxşı münasibətdədirsə və o qonşu da bu münasibəti digərləri ilə yarada bilirsə, onda belə birgə fəaliyyətdən bütün icma faydalanır və beləliklə sosial kapital formalaşmış olur. Bu nəzəriyyənin əsrin əvvəlində yaranmasına baxmayaraq onun geniş tədqiqi XX əsrin 70-80-cı illərindən başlanılmışdır. Bu illərdə Nobel mükafatı laureatı Amerika iqtisadçısı Harri Stenli Bekker (*1930*) tərəfindən əvvəllər işlədilməyən və yeni termin olan insan kapitalı termini işlədilməyə başlanıldı [8, 11]. İnsan kapitalı dedikdə, insanın sağlamlığı, onun təhsil səviyyəsi, təcrübəsi, bacarığı və yeni dəyər yaratmaq qabiliyyəti başa düşülür. İnsan kapitalının yüksək olması iqtisadi inkişaf baxımından sosial kapitalın səviyyəsinin yüksək olmasını tələb edir.

## 6. Sosial məsuliyyət və korporativ inkişaf

Qeyd edildiyi kimi, hər hansı bir siyasətin (*dövlət və ya qeyri-dövlət*) həyata keçirilməsi zamanı maraqlı tərəflərin (*aidiyyəti olan sosial qrupların*) əməkdaşlıq səviyyəsi nəzərə alınmalıdır. Sosial nöqteyi-nəzərdən məsuliyyət daşıyan müəssisə anlayışı əslində maraqlı tərəflər nəzəriyyəsinin bir hissəsini təşkil edir. Sosial siyasətin funksiyalarının bir hissəsinin müəssisələrə keçirilməsi onun effektivliyinin artırılması ilə yanaşı dövlətin sosial yükünü də azaldır [10, 11].

Vaxtilə ABŞ-ın Ceneral Elektrik şirkəti maraqlı tərəflərin dörd əsas qrupunu müəyyənləşdirmişdir [11]:

- səhmdarlar;
- işçilər;
- müştərilər;
- cəmiyyət.

Maraqlı tərəflər hər hansı şirkətdə, qurumda onun keçmiş, indiki və gələcək fəaliyyətində müəyyən tələbləri, mülkiyyəti (*sahib olduğu vəsait*), hüquqları və maraqları olan qruplardır. Maraqlı tərəflər iki qrupa bölünür:

- əsas maraqlı tərəflər
- ikinci dərəcəli maraqlı tərəflər.

Əsas maraqlı tərəflərin şirkətin və ya qurumun fəaliyyətində bilavasitə və davamlı iştirakı mütləqdir. Əks təqdirdə şirkət və ya qurum irəli gedə bilməz. Bu qrupa səhmdarları, investorları, işçiləri, müştəriləri, təchizatçıları, dövləti (*hökuməti*) və qanunları aid etmək olar. İkinci dərəcəli səhmdarlar isə şirkətin fəaliyyətinə təsir göstərirlər, lakin ticarət əməliyyatlarında (*əqdlərdə*) onların bilavasitə iştirakı vacib deyildir. Bu qrupa medianı və xüsusi maraqlı qrupları da aid etmək olar. Kanadada 70 nəhəng şirkət arasında aparılan araşdırmalar belə bir nəticəyə gəlməyə əsas vermişdir ki, maraqlı tərəflərin məsələləri və sosial məsələlər deyilən iki qrup amil mövcuddur. Şirkətlərin rəhbərləri yalnız maraqlı tərəflərlə olan münasibətlərini idarə edirlər, cəmiyyətlə olan münasibətlərə isə fikir vermirlər. O şirkətlər ki, bu amili nəzərə almışdı daha çox müvəffəqiyyətlər əldə etmişdir. "Maraqlı tərəf iqtisadiyyatı" hər kəs üçün əlverişli olmalı, hər kəs üçün imkanlar təqdim etməlidir. Təkmilləşmə əmək tələb edir və heç bir qrup və ya təbəqə bu hüquqdan kənarlaşdırılmamalı və ya məhrum edilməməlidir. İnsanların bu cəmiyyətdə payı var və onlar bunun üçün məsuliyyət hiss edir, bunu əldə etmək və uğur qazanmaq üçün əmək sərf etməyə və işləməyə meyil göstərirlər.

Əslində sosial nöqteyi-nəzərdən məsuliyyətli olmaq o demək deyil ki, hər hansı şirkət və ya qurum onun fəaliyyətində maraqlı olan bütün tərəflərin dediyinə əməl etməli və onların diktəsi ilə fəaliyyətini istiqamətləndirməlidir. Sadəcə olaraq, onların fikirlərini nəzərə almalı və onlarla etik normalara uyğun şəkildə "sosial məsuliyyətlilik" çərçivəsindən kənara çıxmamaqla münasibətdə olmalıdırlar.

Nə üçün bəzi şirkətlər çox tez iflasa uğrayır, məhv olub sıradan çıxırlar? 100 ildən 700 ilə qədər fəaliyyəti davam edən 27 şirkət arasında araşdırma aparılmışdır. Bu şirkətlərin arasında DuPont, Kodak, Mitsui, Sumitomo və Siemens də vardı. Məlum olmuşdur ki, bu şirkətlər öz fəaliyyətləri dövründə 4 əsas amili nəzərə almışlar:

- maliyyədə konservativlik;
- ətraf dünyaya həssaslıq;
- fərqliliyi (*orijinallığı*) qorumaq;
- yeni ideyalara münasibətdə tolerantlıq.

Bu şirkətlər öz kapitallarına deyil, insanlara dəyər vermişlər. İnsanlara dəyər verməyən, sosial kapitalı gücləndirməyən yalnız kapitalını və əmlakını qorumağa çalışan qurum özü-özünü intihara sürükləyir.

## 7. İnam, sosial kapital və korporativ sosial məsuliyyət (KSM)

XVIII və XIX əsrlərdə iki tərəfin razılaşması onların verdikləri şərəf sözü əsasında bağlanırdı və müqavilənin imzalanması onların, sadəcə, əl sıxmasından ibarət olurdu. Hətta Britaniyada XIX əsrə qədər böyük ticarət müqavilələri tərəflərin

əl sıxmaları ilə həyata keçirilirdi. Əgər biznes davranışında inam və etibar mövcud deyilsə, onda ticarət əməliyyatının xərcləri gözlənildiyindən çox olur. Ona görə ki, inam olduğu halda xərc tələb edən informasiya toplanmasına və müqavilələri işləmək üçün bahalı hüquqşünaslara ehtiyac olmur. İnam və KSM bir-birilə sıx əlaqəlidir. KSM prinsiplərini rəhbər tutan şirkət onun fəaliyyətində maraqlı olan tərəflərin inamını artırmaq üçün əlindən gələni edəcəkdir.

Amerika filosofu, siyasi iqtisadçı Frensis Fukuyama (*1952*) öz əsərlərində inamı sosial kapital anlayışı ilə əlaqələndirir. Onun fikrincə, əslində cəmiyyətdə inam ən kiçik və ən vacib sosial vahidlərdən (*fərd və ya ailə*) başlayır və millət səviyyəsinə qədər yüksəlir.

Fərdi səviyyədə inam hər hansı bir kəsin lazımi əşyanı lazımi yerə qoyması ilə formalaşır. Əgər bir şəxs əlində daşıdığı zibil paketini heç kimin görmədiyi bir yerdə atmaq əvəzinə onu zibil qutularının olduğu yerə qədər daşıyırsa, bu şəxs sözsüz olaraq etibar ediləcək şəxsdir. Əgər cəmiyyətin bütün fərdlərinə bu xırda məsələdə etibar olunsaydı, onda bunun ardınca daha böyük məsələlərdə inam yaranar və nəticədə cəmiyyətin sosial kapitalı artardı.

Eyni misalı şirkətlərin nümunəsində də demək olar. Dünya üzrə məşhur “Şell” neft şirkətinin öz tullantılarını Atlantik Okeanına axıtma cəhdi çox böyük beynəlxalq ajiotaja  səbəb oldu.

“Şell”in illər ərzində yaratdığı inam və sosial kapital çox sürətlə məhv oldu və bərpa olunması üçün illər tələb olundu. Eyni bir taleyi məşhur neft nəhəngi “Britiş Petrolium” (*bp*) şirkəti də yaşadı. Sosial məsuliyyət daşıyan müəssisə hal-hazırkı sosial kapitalını qorumaq, gələcəkdə isə daha da artırmaq üçün mübarizə aparmalıdır.

## 8. Etik qaydalar və KSM

XIX əsrin sonlarında Oksfordda bir tacir öz rəqiblərinin hər fürsətdə fırıldaq və dələduzluqdan istifadə etdiklərini müşahidə edir. Nə üçün özünün də belə edə bilmədiyi üçün hiddətlənir.

Nəhayət, cəsarətini toplayıb Balliol kollecinin sahibi nəhəng Benjamin Kouetin yanına gəlir və bu sualı ona verir. Aldığı cavab isə belə olur: “Bacardığın qədər fırıldağa az əl at!” Bu əhvalatdan çıxan ibrətamiz fikir odur ki, əslində etik davranışın heç də sərt və dözülməz qaydaları yoxdur.

Etik davranış fərdlərin, qrupların və cəmiyyətin necə davranmalarına təsir göstərən dəyərləri və prinsipləri əhatə edir. Biznes etikası isə bu dəyər və prinsiplərin biznesdə necə tətbiqi ilə əlaqədardır.

Biznes etikası ilə sosial məsuliyyət arasında əlaqə nədən ibarətdir? KSM şirkətin idarəetmə strategiyasının bir hissəsidir, buna görə də biznes etikası sosial məsuliyyətə aid edilir. Sosial məsuliyyət etik qaydaları həm şirkətin daxilində, həm də şirkətdən kənarda  sosial məsələlərlə məşğul olmağa həvəsləndirir.

## 9. Demoqrafik siyasət

Əhalinin yaş və cins strukturu, doğum və ölüm səviyyələri, daxili və beynəlxalq miqrasiya, əhalinin sıxlığı və onun regionlar üzrə paylanması, orta ömür müddəti, ailənin reproduktiv fəaliyyəti, əhalinin təhsil səviyyəsi, onun maddi və mənəvi durumu ölkənin davamlı inkişafının təmin edilməsində mühüm rol oynayır. Dünya ölkələrinin inkişaf tarixi sübut edir ki, demoqrafik inkişafı olmayan ölkələrin gələcəyi bir çox çətin problemlərin həll edilməsini tələb edir. Əsaslandığı ictimai-iqtisadi quruluşundan asılı olmayaraq hər bir ölkədə demoqrafik siyasətin səmərəliliyi digər sosial-iqtisadi parametrlərlə yanaşı, dünyada baş verən demoqrafik proseslərin dinamikasından və inkişaf xüsusiyyətindən asılıdır [3, 4, 5, 6].

Müasir dövrdə dünyada genişlənən qloballaşma prosesləri çərçivəsində Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının təmin edilməsi onun strateji istiqamətlərinin müəyyənləşdirilməsi demoqrafik proseslərin təhlilini və onların meydana gəlməsi səbəblərinin araşdırılmasını tələb edir. Demoqrafik proseslərin inkişafı istiqamətləri bilavasitə dövlət tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasətə təsir göstərir. Bu, bir tərəfdən dövlət tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasətin effektivliyini artırır, digər tərəfdən isə demoqrafik inkişaf sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini gücləndirir.

Bu gün dünyada baş verən demoqrafik proseslər ziddiyyətli bir xarakter daşıyır. Burada açıq şəkildə şimal və cənub divergensiyası mövcuddur. Bir tərəfdən, cənubda iqtisadi cəhətdən zəif və yoxsulluğun geniş yayıldığı ölkələrdə əhali sürətlə artır, digər tərəfdən, yüksək iqtisadi göstəricilərə malik şimal ölkələrində əhalinin azalma meyilləri müşahidə olunur. Lakin qeyd etmək lazımdır ki, cəmiyyətdə baş verən digər proseslərdən fərqli olaraq demoqrafik sistem homostatik xarakter daşıyır. Yəni demoqrafik sistem ətalətli bir sistem olmaqla xarici təsirlərə çox zəif cavab verir. Əgər demoqrafik inkişaf bilavasitə ölkənin iqtisadi vəziyyətindən asılı olsa idi, onda inkişaf etmiş ölkələr demoqrafik problemlərlə üzləşməzdi. Müasir qloballaşan dünyada demoqrafik problemlərin əsas xarakterik xüsusiyyəti ondan ibarətdir ki, bir ölkədə demoqrafik problem əhalinin təbii artımının azalması, digər ölkədə isə əhalinin yüksək təbii artımı ilə bağlıdır. Təbii artımı aşağı olan və iqtisadi cəhətdən inkişaf etmiş ölkələr bu problemi miqrasiya hesabına həll etməyə çalışırlar. Demoqrafik proseslərin xüsusiyyətləri hər bir ölkə üçün xarakterik olan cəhətlərin araşdırılmasını tələb edir. Bir ölkə üçün əhəmiyyətli olan demoqrafik siyasət başqa ölkə üçün əks təsir göstərir.

Müasir demoqrafik problemlər bu gün Azərbaycanda istər dövlət, istərsə də elmi ictimaiyyət tərəfindən böyük maraq doğurur. Demoqrafik proseslərin cəmiyyətdə baş verən digər proseslərdən fərqi ondan ibarətdir ki, onların həllinin inkar edilməsi cari vəziyyətdə hiss olunmur. Lakin uzun illər onların nəzərə alınmaması gələcəkdə çox mürəkkəb və bəzən həlli mümkün olmayan sosial-iqtisadi fəsadların və hətta

ölkənin müdafiə qabiliyyətinin azalmasına səbəb olan proseslərin meydana gəlməsinə səbəb olur.

## 10. Demoqrafik keçid modelləri

Müasir demoqrafiya elminin son zamanlar daha geniş tədqiq olunan istiqamətlərindən biri əhalinin təkrar istehsalı prosesində baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini izah etməyə cəhd edən demoqrafik keçid konsepsiyasıdır. İlk dəfə demoqrafik keçid termini 1945-ci ildə Amerika demoqrafı Frenk Noutstayn (*1902-1983*) tərəfindən təklif edilmişdir. Lakin demoqrafik keçid konsepsiyasının nəzəri əsasları demoqrafik inqilab adı altında XX əsrin 20-30-cu illərində fransız demoqrafı Adolf Landri (*1874-1956*) tərəfindən hazırlanmışdır. Elmi ədəbiyyatda geniş istifadə olunan demoqrafik keçid, demoqrafik modernləşdirmə və demoqrafik inqilab terminləri prinsip baxımından eyni məna kəsb edir. Demoqrafik keçidin üç əsas modeli mövcuddur:

1. Yüksək doğum və yüksək ölüm fazası;
2. Yüksək doğum və aşağı ölüm fazası;
3. Aşağı doğum və aşağı ölüm fazası.

Demoqrafik inqilab (demoqrafik modernləşdirmə, demoqrafik keçid) yüksək doğum və yüksək ölüm tarazlıq modelindən demoqrafik proseslərin yeni sosial-iqtisadi şəraitə uyğunlaşması məqsədi ilə aşağı doğum və aşağı ölüm tarazlıq modelinə olan keçiddir. Demoqrafik inkişaf tarixində bir modeldən digər modelə keçid min illər vaxt tələb edir. Uzun illər bəşər cəmiyyəti yüksək doğum və yüksək ölüm modeli çərçivəsində fəaliyyət göstərmişdir. Lakin uzun illərdən sonra bütün dünyada ölüm səviyyəsinin aşağı düşməsi yeni demoqrafik modellərə keçilməsi ilə müşahidə ediləcəkdir Demoqrafik tarazlıq bir tərəfdən sistem daxilində doğum ilə ölüm arasında olan tarazlıq, digər tərəfdən isə demoqrafik sistemin cəmiyyətin digər sistemləri ilə mövcud demoqrafik və qeyri-demoqrafik proseslərin qarşılıqlı təsiri şəraitində baş verən tarazlıqdır.

Uzun əsrlər boyu insan cəmiyyəti yüksək doğum və yüksək ölüm modeli əsasında inkişaf etmişdir. Əgər biz bəşər cəmiyyətinin təşəkkülü və inkişafı tarixinə demoqrafik baxımdan yanaşsaq, onda nəzərə çarpan ilk əsas cəhət ondan ibarətdir ki, yalnız XX əsrdə dünya əhalisinin sayı 4 dəfədən çox artmışdır. Belə bir demoqrafik partlayış heç vaxt tarixdə müşahidə olunmamış və bir daha gələcəkdə baş verməyəcəkdir. Şəkil 1-dən aydın göründüyü kimi dünya əhalisinin sayı 1950-ci ildən etibarən görünməmiş sürətlə artmağa başlamışdır. Əgər 50 min illik demoqrafik inkişaf tarixində yalnız 1820-ci ildə Yer kürəsində əhalinin sayı 1 milyard olmuşdusa, ikinci milyarda çatmaq üçün cəmi 100 il vaxt tələb olunmuşdur. Lakin sonrakı 3 milyarda çatmaq üçün artıq 40 il, 4 milyard üçün 15 il, 5 milyarda çatmaq üçün 12 il, 6 milyarda çatmaq üçün isə 12 il lazım gəlmişdir. Demoqrafik partlayışa səbəb tibbin

inkişafı epidemiyaların qarşısının alınması və antibiotiklərin kəşfi olmuşdur.

Demoqrafik partlayış inkişaf etməkdə olan ölkələrdə ölümün səviyyəsinin aşağı düşməsi, doğumun isə kifayət qədər yüksək səviyyədə olması ilə bağlı baş vermişdir. Əhalinin artımı bir tarazlıq halından digərinə keçidlə müşahidə edilmişdir.

Bir tərəfdən iqtisadi cəhətdən güclü inkişaf edən böyük maliyyə potensialına və resurslara malik olan Şimal, digər tərəfdən isə zəif, yoxsul əhalisi aclıqdan əziyyət çəkən Cənub ölkələrindəki sosial-iqtisadi vəziyyət aşkar şəkildə dünyada qloballaşma şəraitində baş verən ziddiyyətli prosesləri daha da dərinləşdirir və mürəkkəb divergent vəziyyət yaradır.




**Şəkil 1. Dünya əhalisinin 2500 il ərzində artım dinamikası**

Belə dərin qütbləşməyə baxmayaraq gələcəkdə də inkişaf etməkdə olan ölkələrin əhalisinin sayının artması gözlənilir. Artıq bir çox Avropa ölkələrində Rusiyada əhalinin de-populyasiyası baş verir. Şübhəsiz ki, bu proseslər Azərbaycandakı demoqrafik vəziyyətə də təsirini göstərmişdir.

1995-2011-ci illər ərzində orta ömür müddəti 69,1 ildən 73,8 yaşına çatmışdır. Lakin bu artım cins qrupları üzrə eyni olmamışdır. Kişilərlə qadınlar arasında orta ömür müddəti göstəricisi üzrə nəzərə çarpacaq fərqlərin olmasına baxmayaraq kişilərin orta ömür müddəti daha sürətlə artmışdır.

Azərbaycanda tədqiqatçılar tərəfindən demoqrafik keçid konsepsiyası demək olar ki, təhlil edilməmişdir. Bütün dünya ölkələri demoqrafik keçid periodunu keçməlidirlər.

Lakin Azərbaycanın demoqrafik keçidin hansı mərhələsində olması və ümumiyyətlə dünyada baş verən demoqrafik keçid prosesləri ilə nə dərəcədə bağlı olması xüsusi əhəmiyyət kəsb edir. Bu demoqrafik proseslərlə yanaşı milli mənafelərin qorunması, milli gücün artırılması ilə bağlı olan digər sosial sahələrdə baş verən dəyişikliklərin araşdırılmasını onların qarşılıqlı əlaqəsinin öyrənilməsini tələb edir.

***Əhalinin doğum səviyyəsi***

Əhalinin təbii artımına təsir edən əsas göstəricilərdən biri əhalinin hər min nəfərinə düşən doğulanların sayını göstərən ümumi doğum əmsalı göstəricisidir. Azərbaycanda ən yüksək doğum səviyyəsi 1960-cı ildə müşahidə edilmişdir. Bu ildə doğumun ümumi əmsalı 42,6nəfər, o cümlədən şəhər yerlərində 34,9 nəfər, kənd yerlərində isə 49,8 nəfər olmuşdur. Hazırda DSK-nın hesablamalarına görə, əhalinin hər min nəfərinə düşən doğulanların sayı 18,5 nəfər, o cümlədən şəhər yerlərində 17,2 nəfər, kənd yerlərində isə 20 nəfər təşkil etmişdir.

Ümumi nəsilvermə əmsalında da son 50 il ərzində ciddi dəyişikliklər baş vermişdir. 1960-cı ildə Azərbaycanda bu əmsal 5,2 nəfər olduğu halda, 2010-cu ildə cəmi 2,3 nəfər olmuşdur. Hətta 2001-ci ildə ilk dəfə bu göstərici 2-dən kiçik olaraq, 1,8 təşkil etmişdir. Lakin 2003-cü ildən etibarən bu göstəricidə yenidən artım müşahidə edilməyə başlanmışdır. Ümumi nəsilvermə əmsalı 2011-ci ildə 2,4 nəfər olmuşdur.

***Əhalinin ölüm səviyyəsi***

Əhalinin təbii artımına təsir göstərən digər göstərici əhalinin hər min nəfərinə düşən ölənlərin sayını göstərən ümumi ölüm əmsalı göstəricisidir. Azərbaycan müstəqilliyini bərpa etdiyi 1991-ci ildə ölüm səviyyəsi 6,3 nəfər, o cümlədən şəhər yerlərində 6,1nəfər, kənd yerlərində 6,4 nəfər təşkil etmişdir. Hazırda Azərbaycanda ölüm əmsalı əhalinin hər 1000 nəfərinə 6 nəfər təşkil edir. Demoqrafik siyasət baxımından ölüm səviyyəsinin aşağı salınmasının təbii məhdudiyyətlər səviyyəsi mövcuddur. Lakin Azərbaycanda mövcud yaş və cins strukturu ölüm səviyyəsinin aşağı salınması üçün mövcud imkanlardan səmərəli istifadə edilməsini tələb edir.

***Əhalinin yaş və cins strukturu***

Əhalinin cins strukturu ölkədə baş verən siyasi və iqtisadi proseslərdən asılı olaraq dəyişir. Azərbaycanda 1939-cu ildə həyata keçirilən əhalinin siyahıya alınmasının nəticələrinə görə, əhalinin 52.4%-ni kişilər, 49,6 %-ni qadınlar təşkil edirdi. Lakin ölkədə baş verən müharibələr bu struktura təsir göstərmışdir. DSK-nın hesablamalarına görə, 2011-ci ildə əhalinin 50,4%-ni qadınlar 49,6%-ni kişilər təşkil etmişdir. Təbii artım prosesində baş verən dəyişikliklər əhalinin yaş strukturuna da ciddi şəkildə təsir göstərmişdir. Belə ki, 60 yaşdan yuxarı yaşda olan əhalinin sayı 1990-cı ildəki 4,8%-dən 2011-ci ildə 6,5%-ə qədər yüksəlmişdir.

## 11. İnsan inkişafı konsepsiyası

XX əsrin son onilliyində meydana gəlmiş davamlı insan inkişafı konsepsiyası müasir dövrdə bilavasitə insan inkişafına doğru istiqamətlənmiş ən müasir inkişaf modellərindən biridir. Bu konsepsiya inkişafın bütün aspektlərini - iqtisadi artım, investisiya, texnologiyalar, infrastruktur, beynəlxalq ticarət, sosial müdafiə, məşğulluq və insan inkişafi ilə bağlı digər sahələri özündə cəmləşdirir. Davamlı İnsan İnkişafı Konsepsiyasının əsas məqsədi insanlara mövcud olduqları insan kapitalının

imkanlarının tam şəkildə həyata keçirilməsi, cəmiyyətdə sərbəst seçim prosesləri üçün bərabər şəraitin yaradılmasının təmin edilməsindən ibarətdir. Davamlı İnsan İnkişafı Strategiyasında elə bir inkişaf prosesi nəzərdə tutulur ki, bu bir tərəfdən müvafiq sosial iqtisadi siyasətlə tənzimlənməli, digər tərəfdən isə gələcək nəslin inkişafı üçün zəmin yaratmalıdır. Davamlı İnsan İnkişafı Konsepsiyası öz qarşısına insan inkişafını əsas məqsəd kimi qoymaqla ona nail olmaq yollarını araşdırır.

Son dövrlərdə dünya iqtisadiyyatında baş verən qloballaşma prosesləri, ölkələr arasında inteqrasiya meyillərinin güclənməsi, iqtisadi inkişafda sosial faktorların rolunun artması davamlı insan inkişafı konsepsiyasının hər bir ölkənin regional və milli xüsusiyyətləri nəzərə alınmaqla yaradılması zərurətini meydana çıxartmışdır. Artıq iqtisadi inkişaf yalnız adambaşına düşən ÜDM-in miqdarı ilə deyil, kəmiyyət xarakteristikaları dəqiq təyin edilə bilməyən sosial faktorlarla da müəyyənləşdirilir.

Dünya iqtisadiyyatında baş verən sosial-iqtisadi inkişaf proseslərinin analizi sübut edir ki, heç də həmişə ölkədə baş verən iqtisadi yüksəliş insan inkişafina adekvat təsir göstərmir. Onun həyata keçirilməsi üçün iqtisadi artımla yanaşı bilavasitə insan inkişafına xidmət edə bilən, cəmiyyətin bütün qrup və təbəqələrinin xüsusiyyətlərini əhatə edən, ölkədə baş verən sosial-iqtisadi prosesləri insan inkişafına yönəldə bilən institusional mühitin formalaşması zəruridir. Azərbaycanda fəaliyyət göstərən hökumət və qeyri-hökumət təşkilatları o cümlədən BMT və Böyük Britaniyanın Oksfam humanitar təşkilatı və s. tərəfindən həyata keçirilən layihələr (*yoxsulluğun azaldılması ilə mübarizə, ekoloji proqramlar, gender problemləri üzrə tədqiqatlar, tədris və səhiyyə sahəsindəki islahatlar*) insan inkişafina doğru istiqamətlənmişdir. 1995-ci ildən başlayaraq hər il İnsan inkişafı haqqında milli hesabatlar dərc olunmağa başlanmışdır. İnsan İnkişafı İndeksi (İİİ) ölkədəki insan kapitalının keyfiyyətini xarakterizə edən əsas sintetik göstəricidir. Bu indeks özündə əsas üç göstəricini əks etdirir:

- ❖ əhalinin sağlamlıq səviyyəsini xarakterizə edən orta ömür müddəti indeksi;
- ❖ əhalinin təhsil səviyyəsi indeksi;
- ❖ adambaşına düşən ÜDM-i xarakterizə edən indeks.

Davamlı insan inkişafı strategiyasında elə inkişaf modeli nəzərdə tutulur ki, əhalinin bütün təbəqələrinin maraqları, cəmiyyətin müasir və prioritet inkişaf istiqamətləri, ətraf mühitin gələcək nəsillər üçün qorunması təmin edilmiş olsun. Davamlı insan inkişafı paradiqmasının əsasını aşağıdakı prinsiplər təşkil edir:

- ❖ davamlılıq;
- ❖ ədalətlilik;
- ❖ insanların inkişafı və maddi rifah.

Davamlı İnsan İnkişafı konsepsiyasının son məqsədi özündə cəmləşdirməklə insan inkişafını təmin edə bilən iqtisadiyyatın bütün sahələrini - səhiyyəni, təhsili, mədəniyyəti və s əhatə edir. 2011-ci ildə Azərbaycanda insan inkişafı indeksi 0,781-ə bərabər olmuşdur. Bu dünya ölkələri arasında 76-cı nəticədir.

## 12. İqtisadi bərabərsizliklərin keçid modeli

İqtisadi inkişaf nəticəsində əhalinin maddi rifahının yüksəlməsi müxtəlif sosial-iqtisadi qruplar arasında keçid proseslərinin baş verməsinə səbəb olur. İqtisadi bərabərsizliklər əhalinin gəlirlərində baş verən dəyişikliklər nəticəsində əmələ gəlir. Bu vergi dərəcələrində olan dəyişikliklər hesabına da əmələ gələ bilər. Əgər iqtisadi inkişaf, vergi dərəcələrinin aşağı salınması əhalinin gəlirlərinin artması ilə müşahidə olunursa, onda əhalinin bir hissəsi gəlirləri aşağı olan qrupdan gəlirləri daha yuxarı olan qruplara keçir. Bu isə öz növbəsində həmin keçid proseslərinin kəmiyyət xarakteristikalarının model səviyyəsində öyrənilməsi zərurətini meydana çıxarır.

Ümumiyyətlə, əhalinin həyat səviyyəsinin tədqiqi üçün bir çox ölkələrdə o cümlədən, Azərbaycanda da ev təsərrüfatlarının müayinəsi həyata keçirilir. Ev təsərrüfatlarının tədqiqi əhalinin müxtəlif sosial-iqtisadi qruplarını əhatə edir və rotasiya üsulu vasitəsi ilə həyata keçirilir. Bu informasiya eyni zamanda əhalinin gəlirlərə görə paylanması və sosial-iqtisadi bərabərsizliyi də təyin etməyə imkan yaradır. Sosial-iqtisadi bərabərsizlikləri qiymətləndirmək üçün Lorens əyrisindən, Cini, desil əmsallarından və s. indekslərdən geniş istifadə olunur. Lakin qeyd etmək lazımdır ki, bu riyazi-iqtisadi metodlar mövcud vəziyyəti əks etdirir. Əgər biz müxtəlif illər üçün bu əmsallardan hər hansı birinin məsələn, desil əmsalını hesablasaq, onda bu dinamik sıra vasitəsi ilə yalnız sosial bərabərsizliyin artıb və azalması barədə fikir söyləyə bilərik. Lakin bu zaman əhalinin müxtəlif sosial-iqtisadi qrupları arasında hansı proseslərin baş verdiyini və nə qədər ev təsərrüfatının aşağı qruplardan yuxarı qruplara keçməsini, başqa sözlə, daxildə baş verən struktur dəyişikliklərinin kəmiyyət xarakteristikaları barədə nəticə söyləməyə imkan vermir. Təklif olunan keçid modelində məhz bu çatışmamazlıq aradan götürülməklə əhalinin gəlirlərinin artması nəticəsində əhalinin müxtəlif sosial-iqtisadi qrupları arasında hansı struktur dəyişikliklərinin baş verdiyinin tədqiq edilməsinə cəhd edilmişdir. Hər bir riyazi-iqtisadi modeldə olduğu kimi burada da müəyyən fərziyyələr irəli sürülmüşdür.

Tutaq ki, hər hansı bir baza ilində əhalinin adambaşına düşən gəlirlərinə görə paylanması $g^o_i$ olmuşdur. Sonra isə əhalinin gəlirlərinin artması ilə əlaqədar olaraq paylanma $g_i$, olmuşdur. Burada $i=\overline{1...m}$, $m$-əhalinin gəlirlərə görə paylanması qruplarının sayıdır. Azərbaycanda son illər aparılan büdcə tədqiqatlarında əhalinin gəlirlərə görə paylanmasında 10 iqtisadi qrup qəbul edilmişdir. $f_i$ və $g_i$ paylanmasını almaq üçün də seçmə üsulu ilə aparılan tədqiqatlar nəticəsində alınan paylanmalar müxtəlif modellər vasitəsi ilə (*məsələn: loqorifmik normal model*) toplu yığıma şamil edilməlidir. Bu paylanmalar Dövlət Statistika Komitəsi tərəfindən hesablanaraq dərc olunur. $F_k$ və $G_k$ paylanmasının kumulyativ sıraları aşağıdakı düstur vasitəsi ilə hesablanır:

$$F_k = \sum_{i=1}^{k} f_i \qquad k = \overline{1,m} \qquad (1)$$

$$G_k = \sum_{i=1}^{k} g_i \qquad k = \overline{1,m} \qquad (2)$$

Təbii ki, əhalinin gəlirləri artırsa, onda biz qəbul edə bilərik ki,

$$F_k \geq G_k \qquad (3)$$

İxtiyari $k$ üçün əhalinin $i$-ci qrupunun ümumi sayda payını göstərdiyindən aşağıdakı bərabərliyi yaza bilərik:

$$\sum_{i=1}^{m} g_i = \sum_{i=1}^{m} f_i = 1 \qquad (4)$$

(4) bərabərliyinin iqtisadi mahiyyəti ondan ibarətdir ki, əhalinin gəlirlərinin artması nəticəsində əhali aşağı qruplardan gəliri daha yüksək olan yuxarı qruplara məsələn, 1-dən 2-yə, 1-dən 3-ə, 1-dən 5-ə, 1-dən 6-ya, 2-dən 3-ə, 2-dən 4-ə, ... və s. keçid baş verir. Aydın məsələdir ki, iqtisadi artım nəticəsində əhalinin 1-ci qrupdan 2-ci qrupa keçmə ehtimalı, 1-dən 3-ə keçmə ehtimalından daha çoxdur. Biz fərz edirik ki, iqtisadi inkişaf nəticəsində əhali gəlirləri az olan qruplardan gəlirləri daha çox olan yüksək qruplara keçir. Onda bu keçid prosesini xarakterizə edən H matrisi üçbucaqlı matris olmalıdır.

Burada matrisa aşağıdakı şəkildə olmalıdır:

$$H = \begin{pmatrix} h_{11}, & h_{12}, & \dots & h_{1m} \\ 0, & h_{22} & \dots & h_{2m} \\ \dots & \dots & \dots & \dots \\ 0, & 0, & \dots & h_{mm} \end{pmatrix} \begin{matrix} f_1 \\ f_2 \\ \vdots \\ f_{1n} \end{matrix} \qquad (5)$$

$$g_1 \quad g_2 \quad \dots \quad g_{1n} \qquad (6)$$

$H$ matrisi, eyni zamanda, aşağıdakı sərhəd şərtlərini ödəməlidir.

$$\sum_{i=1}^{m} h_{ij} = g_j \qquad (7)$$

$$\sum_{j=1}^{m} h_{ij} = f_i \qquad (8)$$

$H$ matrisinə keçid matrisi deyilir. Keçid matrisi faktiki olaraq müxtəlif paylanmalar arasında hansı struktur dəyişikliklərinin baş verdiyini söyləməyə imkan verir. Bu modelin əsas fərziyyəsi ondan ibarətdir ki, iqtisadi inkişaf nəticəsində sosial-iqtisadi qruplar gəlirləri aşağı olan təbəqələrdən gəlirləri daha yüksək olan yuxarı təbəqələrə keçirlər. $H$ matrisini sütunlar üzrə quraq. Matris üçbucaq matris olduğundan birinci sütun üçün trivial olaraq aşağıdakını alırıq:

$$h_{11} = g_1, \quad h_{k1} = 0, \quad \mathrm{k} = \overline{2, m}$$

Mütənasib paylanma üsulundan istifadə edərək ikinci sütun üçün aşağıdakı qiymətləri alırıq:

$$h_{12} = \frac{f_1 - g_1}{f_1 + f_2 - g_1} g_2$$

$$h_{22} = \frac{f_2}{f_1 + f_2 - g_1} g_2$$

Asanlıqla müəyyən etmək olar ki,

$$h_{12} + h_{22} = \frac{f_1 - g_1}{f_1 + f_2 - g_1} g_2 + \frac{f_2}{f_1 + f_2 - g_1} g_2 = \frac{(f_1 - g_1 + f_2) g_2}{f_1 + f_2 - g_1} = g_2$$

İkinci sütunun qalan elementləri üçün

$$h_{s2} = 0, \quad \mathrm{s} = \overline{3, m}$$

(1)-(2) düsturlarından istifadə edərək  və  -ni aşağıdakı şəkildə ifadə edə bilərik:

$$h_{12} = \frac{f_1 - g_1}{F_2 - G_1} g_2$$

$$h_{22} = \frac{f_2}{F_2 - G_1} g_2$$

Analoji olaraq üçüncü sətrin elementləri üçün aşağıdakı düsturları ala bilərik:

$$h_{13} = \frac{K_{13}}{F_3 - G_2} g_3$$

$$h_{23} = \frac{K_{23}}{F_3 - G_2} g_3$$

Burada

$$K_{13} = f_1 - g_1 - \frac{f_1 - g_1}{f_1 + f_2 - g_1} g_2 \qquad (9)$$

$$K_{23} = f_2 - \frac{f_2}{f_1 + f_2 - g_1} g_2 \qquad (10)$$

$\|h_{ij}\|$ matrisinin j-matrisinin elementlərini tapmaq üçün yeni  matrisini daxil edək:

$$K_{ij} = f_i - \sum_{n=1}^{j-1} h_{in}, \quad j \succ 1, \quad j \succ n$$

$(h_{ij})$ matrisi üçbucaq olduğundan,

$$K_{ij} = f_1 - \sum_{n=i}^{j-1} h_{in}$$

Xüsusi halda $i=1$ və $j=3$ olduqda (9) düsturunu alırıq.

Analoji qaydada matrisindən istifadə edərək ilkin paylanmadan iqtisadi artım olduqdan sonra yaranmış paylanmaya olan keçid matrisini aşağıdakı şəkildə ifadə edə bilərik.

$(h_{ij})$ matrisinin (11) düsturu vasitəsi ilə ümumi şəkildə hesablamaq mümkündür. Mütənasib paylanma üsulunun iqtisadi mahiyyətini izah edək. Bu üsul iqtisadi artım nəticəsində əhalinin gəlirlərinin artması ilə əlaqədar olaraq əhalinin aşağı qruplardan daha yüksək qruplara keçidin daha ehtimallı yollarını təsvir edir. Belə ki, əhalinin gəlirlərinin artması, əməkhaqqının, sosial transferlərin və digər mənbələrin hesabına baş verir. Əhalinin gəlirlərinin artması aşağı qrupdan daha yuxarı qrupa keçməsini zəruriləşdirir. Riyazi induksiya üsulundan istifadə etməklə asanlıqla isbat etmək olar ki, $(h_{ij})$ matrisi (1)-(2) bərabərliyini ödəyir [13]. Keçid matrisi yalnız iqtisadi siyasətin əsaslandırılması ilə yanaşı bir çox sosial proseslərin təhlili zamanı da istifadə edilə bilər.

## 13. Nəticə

Aparılan araşdırmalar yekun olaraq aşağıdakı nəticələrin irəli sürülməsinə imkan verir:

- dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin səmərəliliyinin təmin edilməsi prosesində cəmiyyətdəki mövcud sosial-iqtisadi bərabərsizliklər qiymətləndirilməli və sosial parametrlərin dinamikası əsas götürülməlidir;
- iqtisadi inkişaf prosesində sosial kapital əhəmiyyətli və bir çox hallarda həlledici rol oynayır. Sosial kapitalın kəmiyyət xarakteristikalarının təyin edilməsi sahəsində mövcud problemlər onun riyazi-iqtisadi modelləşdirmə prosesində tətbiqini çətinləşdirir və yeni prinsipial üsulların işlənilməsi zərurətini meydana çıxarır;
- demoqrafik inkişaf, əhalinin yaş və cins strukturunun dinamikası, əmək bazarının göstərcilərinin təhlili prosesində demoqrafik keçid modellərinin xüsusiyyətləri nəzərə alınmalıdır;
- bazar iqtisadiyyatının sosial mexanizmlərinin zəif olması bu sahədə dövlətin rolunu və funksiyalarını artırır. Azərbaycanda fəaliyyət göstərən transmilli şirkətlərin korporativ sosial məsuluyyəti artırılmalı və dövlətin sosial yükünün bir hissəsi şirkətlər arasında paylanılmalıdır;
- vergi siyasəti və xüsusi ilə gəlir vergisində baş verən dəyişikliklər bilavasıtə əhalinin gəlirlərə görə diferensiasiyasında müxtəlif dəyişikliklər baş verir. Məhz bu dəyişikliklərin qiymətləndirilməsi zamanı keçid modellərindən istifadə etmək olar.

## Ədəbiyyat siyahısı

1. Musayev A.F. (2012). "Modernləşdirmə və aktiv vergi siyasəti". "Azərbaycanın vergi jurnalı", № 6.
2. Musayev A.F. (2004). "Vergi siyasətinin iqtisadi problemləri". Bakı, "Elm" nəşriyyatı, 786 s.
3. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. (1999). Bakı, Azərbaycan Respublikası Qanunları Külliyyatı, № 12, səh. 6.
4. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı. (2004). Bakı, Azərbaycan Respublikası Qanunları Külliyyatı, № 11, səh. 28.
5. Azərbaycanda səhiyyə, sosial təminat və ətraf mühit. (2011). Bakı, Azərbaycan Dövlət Statistika Komitəsi, 283 s.
6. The new demografik regime / Population Challenges and Policy Responses/ United Nations. New York and Geneva, 2005. (*Yeni demoqrafik rejim/ Əhali problemləri və siyasi cavablar/ BMT, Nyu-York və Cenevrə, 2005*).
7. Караев И.А. (1989) "Методы оценивания функций спроса и предложения в неравновесной экономики". Москва, изд. ЦЭМИ, 24 стр. (*Qarayev İ.Ə. (1989) Qeyri-taraz iqtisadiyyatda tələb və təklifin funksiyasının qiymətləndirilməsi metodları. Moskva, Rusiya Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat və Riyaziyyat İnstitutu, 24 səh.*).
8. Социальная политика. (2010) Под. общ.ред. Волгина Н.А. Москва, изд. "Экзамен", 734 с. (*Sosial siyasət. (2010) N.A.Volqinin ümumi redaktəsilə. Moskva, "Ekzamen" nəşriyyatı, 734 səh.*).
9. Social Quality: A Vision for Europe. (2002). Edited by W.Beck, L.Maeson London, Boston, (*Sosial keyfiyyət: Avropaya baxış. (2002). V.Bek, L.Meysonun redaktəsilə. London, Boston*).
10. Michael Howard. (2001). Public Sector Economics / University of the West Indies Press/ . (*M.Hovard. (2001). Dövlət sektorunun iqtisadiyyatı/ Şərqi İnd Universitetinin nəşriyyatı*).
11. Michael Hopkins. (2009). Corporate Social Responsibility/ Geneva. (M.Hopkins. (2009). Korporativ Sosial Məsuliyyət. Cenevrə )
12. www.azstat.org - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi.
13. Аскеров Р.Ш. (2012). Моделирование влияния миграционных процессов на социально-экономическую дифференциацию. Ученые записки Орловского Государственного Университета. № 1(45). (*Əsgərov R.Ş. (2012). Miqrasiya proseslərinin sosial-iqtisadi diferensiasiyaya təsirinin modelləşdirilməsi. Orlov Dövlət Universitetinin elmi qeydləri. № 1(45)*)

AZƏRBAYCANIN
VERGİ JURNALI

**Мусаев Акиф Фархад оглы**
Доктор экономических наук, профессор, член-корреспондент НАНА

**Гараев Имран Алияр оглы**
Доктор философии по экономике, доцент

# Социальная политика и экономическое развитие

## Аннотация

*Цель исследования* – анализ различных аспектов социальной политики на современном этапе экономического развития, обоснование ее стимулирующей роли, а также исследование ее воздействия на устойчивое развитие.

*Методология исследования* – экономико-математическое моделирование, статистический анализ, системный подход, сравнительный анализ.

*Результаты исследования* – определение воздействия социальных, демографических путей в Азербайджане а также построение переходных моделей социального экономического неравенства.

*Ограничения исследования* – оценка социального капитала и определение количественных характеристик с практической точки зрения.

*Практическая значимость исследования* – роль социальных факторов на современном этапе экономического развития и ее оценка.

*Оригинальность и научная новизна исследования* – определение роли социального капитала в экономическом развитии, а также переходных моделей социально-экономического неравенства.

**Ключевые слова:** *социальная политика, социальный капитал, демографический переход, социально-экономическое неравенство.*

**Musayev Akif Farhad oglu**
Doctor of Economics, Professor, Correspondent member of ANAS

**Garayev Imran Aliyar oglu**
Ph.Doctor of Economics, Docent

## Social policy and economic growth

### Abstract

*Purpose* – the substantiation of stimulating role of social policy through the analysis of its various aspects in the present phase of the economic growth and study of its impact on sustainable development.

*Methodology* – mathematical and economic modeling, statistical analysis, systematic approach, the comparative analysis.

*Findings* – identification of impact of social, demographic evolution process on economic relations and developing of transition model of socio-economic inequalities in Azerbaijan.

*Research limitations* – assessment of social capital and usage of economic inequalities in transition model for the reason of practical complication of identification of quantitative characteristics of social capital.

*Practical implication* – the role of social factors in the present phase of economic growth and their assessment.

*Originality* – identification of role of social policy in economic growth and investigation of transition model of socio-economic inequalities.

**Keywords:** *social policy, social capital, demographic transition, socio-economic inequalities.*

**JEL Classification Codes:** A13, H43, Z13.

Məqalə redaksiyaya daxil olmuşdur: 16.12.12.
Çapa qəbul olunmuşdur: 24.01.13.